Eldar İsmayılov

# AZƏRBAYCANDA "BÖYÜK TERROR"UN TARİXİ

qanun nəşriyyatı

**Eldar İsmayılov. AZƏRBAYCANDA "BÖYÜK TERROR"UN TARİXİ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 368 səh.

Janr: non-fiction / tarix
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 28.02.2024

| | |
|---|---|
| Elmi redaktor: | *Professor* Cəfər Cəfərov<br>Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru |
| Rəyçi: | *Tarix elmləri doktoru* Sevinc Əliyeva<br>Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu<br>"Azərbaycan-Rusiya əlaqələri tarixi" şöbəsinin müdiri |
| Tərcüməçi: | Şəlalə Məmmədova |
| Korrektor: | Əyyar Tahir |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Sevil Rafail |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-911-1

© Qanun Nəşriyyatı, 2024
©Eldar İsmayılov, 2015, 2024
© ROSSPEN nəşriyyatı, 2015

Kitab sovet Azərbaycanının ən dramatik dövrünə – 1936-1938-ci illərdə baş vermiş repressiyalara həsr olunub. Stalinizmin regionlarda törətdiyi faciələrə dair dərin elmi tədqiqat işi yazılmayıb. Bu mənada bu əsər mövcud boşluğu doldurur. Müəllif Azərbaycan və Rusiya arxivlərindən əldə etdiyi çoxsaylı sənədlərin təhlili əsasında repressiyanı dərindən təhlil edib. Əslində, repressiyalar millətçilərin dedikləri kimi antiazərbaycan xarakteri daşımırdı. “Böyük terror” millətindən və dinindən asılı olmayaraq bütövlükdə sovet xalqının hər bir üzvünə qarşı yönəlmişdi.

Kitab həm mütəxəssislər, həm də sovet və Azərbaycan tarixi ilə maraqlananlar üçün nəzərdə tutulub.

# MÜNDƏRİCAT

Müəllifdən ........ 5

I FƏSİL

Sovet dövləti "böyük terror"a aparan yolda ........ 17

II FƏSİL

Azərbaycan 1920-ci illərin sonu – 1930-cu illərin əvvəllərində: hakimiyyətdə siyasi çaxnaşma ........ 47

III FƏSİL

"Böyük terror" ərəfəsində ........ 63

IV FƏSİL

Təlatümün erkən mərhələsi ........ 91

V FƏSİL

Dəhşətli 1937 ........ 117

§1 Qərargahlara açılan atəş ........ 117

§2 Azərbaycan K(b)P-nin "unudulmaz" XIII qurultayı ........ 144

§3 Repressiyaların planlaşdırılması ........ 161

VI FƏSİL

1938-ci il: "xalq düşmənləri"nə qarşı mübarizə səngimir ........ 210

VII FƏSİL

"Böyük terror"un sonu ........ 240

VIII FƏSİL

"İfadə versəniz, sizi döyməyəcəklər" ........ 252

Son söz ........ 288

Əlavə ........ 296

1937-1938-ci ildə Azərbaycanda repressiya olunanların "Stalin siyahısı" ........ 296

"Üçlüklər"in iclas protokolları ........ 325

Mənbələr və ədəbiyyat ........ 325

## MÜƏLLİFDƏN

“1937-ci il” sovet tarixinin ən dəhşətli səhifələrindən biridir. Xronoloji cəhətdən 1937-ci il bir illik ölçü olaraq nisbi xarakter daşıyır. “1937-ci il” ilə bağlı kütləvi repressiyalar əslində iki ildən də çox bir dövrü, 1936-cı ilin yayından 1938-ci ilin payızına qədər olan dövrü əhatə edir. Bu dövrün sovet dövlətinin tarixi salnaməsində və sovet xalqının tarixi yaddaşında xüsusi yer tutması anlaşılandır. Əvvəllər də humanistliyi ilə seçilməyən, öz məqsəd və vəzifələrinə nail olmaq üçün müntəzəm dövlət terrorundan istifadə edən sovet totalitar sistemi bu qısa zaman çərçivəsində daha da irəliyə gedərək əvvəlkindən də geniş şəkildə vətəndaş hüququ normalarını, xüsusilə də vətəndaşların şəxsi təhlükəsizliyini pozmağa başlayır. Bu proseslərin vətəndaş hüquqlarının təmin edildiyini təntənəli şəkildə əks etdirən 1936-cı il Konstitusiyasının qəbul olunduğu bir dövrdə baş verməsi isə vəziyyətin nə dərəcədə paradoksal olduğunu göstərir. Əslində bu, böyük qurbanlara, çoxlu sayda insanların hüquq və azadlığının pozulmasına gətirib çıxarmış açıq “özbaşınalıq” idi. Məhz bu baxımdan bu dövrün hadisələri “böyük terror” adlandırılır.

SSRİ-də “böyük terror” problemi artıq uzun illərdir ki, sovet, sonradan isə rus tarixi, ədəbi və fəlsəfi əsərlərin

mövzusuna çevrilib. Azərbaycanda isə bu dövrün kompleks şəkildə tədqiqi həyata keçirilməyib. Lakin bu mövzunun hərtərəfli araşdırılması müasirimizə dövrümüzün bir çox milli problemlərinin köklərini dərk etməyə, hazırda müstəqil olan Azərbaycan dövlətinin, xalqının, Azərbaycan millətinin qarşısında duran maneələrin aradan qaldırılması üçün vasitə və üsulların tapılmasına yardım edə bilər. Bu cür tədqiqatların olmamağı çox zaman Azərbaycanda "böyük terror"la bağlı hadisələrin düzgün təqdim edilməməyinə, baş verənlərin yerli xarakter daşıması kimi bir təsəvvürün formalaşmasına, ya da həqiqətdən uzaq şərhlərin yaranmasına, bu hadisələrdə iştirak etmiş, repressiya siyasəti yürütmüş və ya repressiyaların qurbanı olmuş konkret şəxsiyyətlərin rolunun düzgün qiymətlənməməyinə səbəb olur.

Bu problemin öyrənilməsini qiymətləndirərkən üç istiqamət diqqəti cəlb edir. Birinci qiymətləndirmədə respublikada baş verən repressiyaların masştabının Mir Cəfər Bağırovun qəddarlığı və xəyanətkarlığı ilə bağlamaq cəhdi hiss olunur. Azərbaycanda "böyük terror"un bu cür şərhinin əsas səbəbi 1956-cı ilin aprelində M.C.Bağırov, X.Qriqoryan, A.Markaryan, T.Borşev, S.Yemelyanov, A.Atakişiyevin işi üzrə istintaq prosesi ilə bağlıdır. Məhkəmə prosesinin sonunda müttəhimlər üçün çıxarılan ağır hökm qərarı çoxlarında 1937-1938-ci ilin faciəsində onların əsas günahkar olması təsəvvürünü yaratmışdı. Ədəbiyyatda kütləvi repressiyalar zamanı öldürülənlərin şər və böhtanın qurbanına çevrilmiş nümunəvi və vicdanlı partiya və dövlət məmurları olması haqqında fikir də möv-

cuddur. Üçüncü istiqamətə görə öldürülənlər əsasən partiya nomenklaturası, mədəniyyət və ordu nümayəndələri idi. Bu əsərin mövzu və istiqamətini Azərbaycanda "böyük terror"un nəticələrinin bu cür qiymətləndirilməsi ilə bağlı yaranmış şübhələr müəyyənləşdirmişdi.

Sosialist sistemi və ittifaq dövlətinin dağılması həddən artıq siyasiləşdirilmiş "həqiqətlərin" təftiş edilməsi üçün əlverişli şərait yaratdı. Yalan partiya həqiqətlərindən kütləvi şəkildə imtina edilməsinə, siyasi senzuranın ləğvinə, tematik sənəd toplularının nəşrinə başlanıldı. Bununla bağlı Rusiyada bir sıra fundamental topluların işıq üzü görməsi mühüm əhəmiyyət kəsb edir. Bu problemlə maraqlananlar üçün "Lubyanka. Stalin və XDİK Dövlət təhlükəsizliyi Baş İdarəsi. 1937-1938"[1] adlı sənədlər toplusunun nəşri xüsusilə mühüm əhəmiyyət kəsb edir. Bu nəşrə daxil edilmiş sənədlər tədqiq edilən dövrdə SSRİ-də baş vermiş repressiyalar haqqında mühüm nəticələr əldə etmək imkanı verir. Sənədli materiallarla zəngin böyük kitabda Azərbaycana aid çoxlu sayda məlumat mövcuddur. Lakin Azərbaycanın özündə mərkəzi dövlət orqanlarının repressiyalarla bağlı mövqeyini, yerli respublika partiya, sovet, cəza orqanlarının "böyük terror"da rolu və iştirakını əks etdirən materiallar toplusu nəşr edilməmişdir. 1993-cü ildə işıq üzü görmüş iki nəşr istisna təşkil edir.

Bunlardan biri respublikanın Dövlət Təhlükəsizlik Komitəsinin arxivində böyük sənəd külliyyatını süzgəcdən

---

[1]Лубянка. Сталин и Главное управление госбезопасности НКВД. Архив Сталина. Документы высших органов партийной и государственной власти. 1937-1938. М.: Международный фонд "Демократия", 2004

keçirmiş mərhum akademik Ziya Bünyadovun xidmətidir. O, əldə etdiyi materialları şərhləri ilə birlikdə nəşr etdirmişdi.[1] Bu materialların böyük hissəsi "böyük terror" dövrünün repressiyalarına həsr edilib. Z.Bünyadovun kitabına o dövrdə məhkum edilmiş yüzdən çox insanın istintaq materiallarından məlumatlar daxil edilib. Bu sənədlər repressiyaların xarakterini, etiraf alma metodlarını öyrənmək, repressiya siyasətinin məqsəd və vəzifələrini dərk etmək üçün qiymətli məlumatlar verir.

Digər nəşr isə 1956-cı ildə Mir Cəfər Bağırov və digərlərinin işi üzrə məhkəmə prosesinin müəyyən hissələrini əhatə edir.[2] Cəmi altı çap vərəqindən ibarət olan natamam, xronoloji cəhətdən ardıcıl olmayan bu kiçik nəşr M.C.Bağırovun respublikaya rəhbərlik etdiyi dövrlə, repressiya dövrü ilə maraqlananlar üçün mühüm əhəmiyyət kəsb edir. Bu iki nəşrdən başqa Azərbaycanda "böyük terrora" həsr olunmuş hər hansı sənəd toplusu işıq üzü görməyib. Təəssüf ki, Azərbaycan tarixşünaslığında da bu dövrə həsr olunmuş ciddi tədqiqat əsəri yoxdur. Ola bilsin ki, Cəmil Həsənlinin keçən əsrin 90-cı illərinin əvvəlində işıq üzü görmüş və əsasən 1930-cu ilin ikinci yarısının siyasi tarixinə həsr edilmiş əsəri istisna təşkil edir.[3] Etiraf etmək lazımdır ki, bu kitabda o dövrün bir sıra hadisələri "yenidənqurma" dövrünün erkən mərhələsində nəşr edilmiş ədəbiyyatın ideoloji təsiri altında şərh edilmişdir.

---

[1] Bünyadov Ziya. Qırmızı terror. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993

[2] Mir Cəfər Bağırovun məhkəməsi. (Arxiv materialları). Bakı: Yazıçı, 1993

[3] Həsənov Cəmil. Ağ ləkələrin qara kölgəsi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1991

Bu kitab üzərində işləyərkən müəllif Azərbaycan Respublikası Prezidenti yanında Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivinin (ARPSPİHDA), Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivinin (ARMDA) materiallarından istifadə etmişdir. Bundan başqa Rusiya dövlət sosial-siyasi tarix arxivinin (RDSSTA), Rusiya və Azərbaycanda nəşr edilmiş sənədlər məcmuəsi və kitabların sənəd və məlumatlarından, kütləvi informasiya vasitələrinin materiallarından da istifadə edilmişdir. Bu mövzu ilə bağlı Rusiya tədqiqatçılarının əsərləri ilə tanışlıq müəllifə böyük yardım göstərmişdi. Bütün bunlar oxucuların mühakiməsinə verilmiş əsərin məzmun və quruluşunu müəyyən etmişdi.

Əsərin əsas hissəsinin təsvirinə keçməzdən əvvəl müəllif oxuculara "böyük terror"un baş verdiyi dövrdə, 30-cu illərin ortalarında Azərbaycan Sovet Sosialist Respublikası əhalisinin tərkibi, inzibati-ərazi bölgüsü haqqında məlumat verir.

1937-ci il yanvarın 6-da SSRİ-də əhalinin Ümumxalq siyahıya alınması keçirilir. Qanlı kütləvi repressiyaların keçirildiyi bir dövrdə, 1937-ci il sentyabrın 26-da SSRİ Xalq Komissarları Soveti qəbul etdiyi qərarla bildirir ki, "1937-ci ilin yanvarında əhalinin Ümumxalq siyahıya alınması SSRİ Dövlət Plan Komitəsinin Xalq Təsərrüfatı Qeydiyyatı İdarəsi tərəfindən elementar qaydaların, həmçinin hökumət tərəfindən təsdiq edilmiş təlimatın kobud şəkildə pozulması ilə həyata keçirildiyi üçün" "siyahıya alınmanın təşkili qeyri-məqbul hesab edilir, siyahıya alın-

manın materialları isə qüsurlu" sayılır.[1] Bununla əlaqədar siyahıya alınmanın nəticələri elan olunmur, materialların böyük hissəsi isə məhv edilir. Yalnız 2007-ci ildə siyahıya alınma ərəfəsində SSRİ əhalisinin sayı və tərkibi haqqında qiymətli məlumatlara malik sənədlərin bir qismi işıq üzü görür.

Müasir Rusiya tədqiqatçıları 1937-ci il siyahıya alınmasının nəticələrinin mənfi qiymətləndirilməsi ilə razı deyillər. Bu materialların aparıcı tədqiqatçılarından olan tarix elmləri doktoru V.B.Jiromskaya bununla bağlı yazır: "Qiymətləndirmələrdə müəyyən fərqlərin[2] olmasına baxmayaraq... tədqiqatçılar siyahıya alınmanın diqqətlə keçirildiyi, nəticələrin isə yüksək dəqiqliyə malik olduğu qənaətindədirlər. Bu nəticə 1939-cu il siyahıya alınmasının nəticələri ilə də təsdiq olunur". Müharibə başladığından 1939-cu il siyahıya alınmasının nəticələri elan edilmədi. Əhalinin 1959-cu il siyahıya alınmasının yekun materiallarında 1939-cu il siyahıya alınmasının yalnız bəzi fraqmentləri yer almışdı.

Lakin hər iki siyahıya alınmanın hazırda məlum olan məlumatları qeyd olunan dövrdə Azərbaycan SSR əhalisinin sayı və tərkibi haqqında təsəvvür yaratmaq imkanı verir. 1937-ci il siyahıya alınmasına görə respublikada 3.057 min nəfər yaşayırdı. 1920-1930-cu illərdə respublika əhalisinin sayı ölkə əhalisinin sayına nisbətən sürətlə artırdı. Müqayisə üçün qeyd edək ki, 1926-cı ildən əhalinin artımı 132,8% təşkil edirdi, ölkə üzrə artım isə cəmi 1,1

[1] Всесоюзная перепись населения 1937 года: общие итоги. Сборник документов и материалов. М.: РОССПЭН, 2007, s. 22
[2] Yenə orada, s. 23

dəfə idi. Bunun səbəbini izah etmək çətin deyil. Azərbaycan SSR XX əsrin 20-30-cu illərində Ukraynadakı "qolodomor", RSFSR-in bir sıra vilayətlərində, Qazaxıstanda milyonlarla insanın həyatına son qoymuş aclıq kimi sosial təlatümdən uzaq qalmış respublikalardan idi. Rusiya Federasiyasının minlərlə aclıqdan əziyyət çəkən əhalisi ölümdən xilas olmaq, qazanc əldə etmək ümidi ilə cənub respublikalara, o cümlədən Azərbaycana üz tuturdular. Azərbaycanda isə iqtisadiyyatın sənaye sektorunun, xüsusilə də neft sənayesinin genişlənməsi, yerli kənd əhalisinin isə şəhərə zəif miqrasiyası ilə əlaqədar işçi qüvvəsinə olan ehtiyac olduqca yüksək idi.

Azərbaycan əhalisi tərkibinin digər özünəməxsusluğu qadınlara nisbətən kişilərin sayının çox olması idi. SSRİ üzrə qadınların sayı kişilərin sayından çox idi, Azərbaycanda isə kişilərin sayı qadınların sayından bir qədər çox idi. 1937-ci ildə SSRİ-də qadınların sayı kişilərin sayından 6,5 milyon nəfər çox olduğu halda Azərbaycanda kişilərin sayı qadınların sayından 70 min nəfər çox idi.[1] Rəqəmlər arasında bu cür böyük fərqin bir neçə səbəbi var idi. Bunlardan biri vətəndaş müharibəsinin nəticələri idi. Rusiya vilayətlərində, Ukraynada hərbi əməliyyatlar qəddar xarakter daşımış və böyük insan, xüsusilə də kişi tələfatı ilə müşayiət olunmuşdu. Azərbaycanda belə sərt qarşıdurma olmamış, kişilər tərəfindən də böyük itkilər verilməmişdi. Digər səbəb Azərbaycanda əhalinin artımına ciddi təsir

---

[1] Всесоюзная перепись населения 1937 года: общие итоги. Сборник документов и материалов, s. 46, 47